# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikasının**
**__Təhsil Nazirliyinin 5^22^fnömrəli *Oty***
**2020-ci il tarixli əmri ilə təsdiq edilmişdir**




# BAKALAVRİAT SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# TƏHSİL PROQRAMI

**ixtisasın (proqramın) şifri və adı:**
**050316 - Sənətşünaslıq (sahələr üzrə)**

**BAKI – 2020**

**BAKALAVRİAT SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ**

**TƏHSİL PROQRAMININ ÇƏRÇİVƏ SƏNƏDİ**

## 1. Ümumi müddəalar

1.1. Bakalavriat səviyyəsinin **"050316 - Sənətşünashq" (sahələr üzrə)** ixtisası üzrə Təhsil Proqramı (bundan sonra: İxtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin bakalavriat (əsas (baza ali) təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatf'na uyğun hazırlanmışdır.

1.2. Təhsil Proqramının məqsədləri aşağıdakılardır:

İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübəkeçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir;

Tələbələri və işəgötürənləri məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq;

Təhsil Proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı bu prosesə cəlb olunan ekspertləri məlumatlandırmaq.

1.3. Təhsil Proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə bakalavr əsas hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan kənar ümumi yükünün həcmi 45 saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50%-dən çox olmamalıdır. İxtisasın xüsusiyyətindən asılı olaraq həftəlik yükün həcmi dəyişdirilə bilər.

## 2. Məzunun kom pe tens iy alan

2.1. Təhsil Proqramının sonunda məzun aşağıdakı ümumi kompetensiyalara yiyələnməlidir:

İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;

İxtisası üzrə ən azı bir xarici dildə kommunikasiya bacarıqlarına;

Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsaslan və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;

Milli dövlətimizin qarşılaşdığı təhdidləri və çağınşlan müəyyən etmə bacanqlanna;

İş yerində informasiya texnologiyalanndan istifadə etmək qabiliyyətinə;

Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətinə;

Yeni şəraitə uyğunlaşmaq, təşəbbüs irəli sürmək qabiliyyətinə və uğur qazanmaq iradəsinə; Məsələlərin həlli üçün əlavə məlumat resurslarını müəyyən etmək və seçə bilmək qabiliyyətinə;

Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq

etmək bacarıqlarına;

Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarım təkmilləşdirmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyətinə;

Fəaliyyətində sosial və ekoloji məsuliyyətə, eləcə də vətəndaş şüuru və etik yanaşmaya, həmçinin keyfiyyətə üstünlük vermək bacarığına;

Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və Özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına.

2.2. Təhsil Proqramının sonunda məzun aşağıdakı peşə kompetensiyalanna yiyələnməlidir: mədəniyyətin forma və növləri haqqında məlumata, dünyanın əsas mədəni-tarixi mərkəzləri olmuş regionları tanımağa, Azərbaycan mədəniyyətini və onun dünya mədəniyyəti və sivilizasiyasında tutduğu yeri qiymətləndirməyə, cəmiyyət və mədəniyyət barədə dialoqlarda iştirak etməyə;

2.3. dıcı şəxsiyyət kimi hər hansı bir işə öz münasibətini yazılı və şifahi formada bildirməyə;

müasir dövrdə humanizm və demokratiya prinsiplərinə inteqrasiya etməyə;

sağlam həyat tərzini qoruyub saxlamağa;

mədəniyyətlərarası dialoqa hazır olmağa;

tənqid və özünütənqidə;

yeni ideyalar irəli sürmək və əsaslandırmağa;

problemli şəraitlərdə təşəbbüskarlıq göstərməyi və məsuliyyəti öz üzərinə götürmək bacarığına;

kollektivdə işləmək qabiliyyətinə;

digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq qabiliyyətinə;

fəal sosial mobilliyə;

beynəlxalq arenada işləmək qabiliyyətinə;

elmi-tədqiqat və elmi-istehsalat işlərinin təşkilində, elmi kollektivin idarə olunmasında bacarıq və vərdişlərə;

təşəbbüskarlıq və liderliyə;

işi təşkil etmək və planlaşdırmaq qabiliyyətinə;

fundamental sənətşünaslıq sahəsində dərin biliklərə əsaslanan müasir sənətşünaslığın elmi- nəzəri nailiyyətlərindən istifadə edərək muzey, kitabxana və arxivlərdə işləmək bacarığına, tarixi-müqayisəli təhlil, müasir kompleks yanaşma, tipoloji yanaşma, sosioloji-fəlsəfi, kulturoloji araşdırma üsullarından istifadə etmək qabiliyyətinə (PK-16);

sənətşünaslıq problemlərinin təhlilində bədii tənqidin üsullarından istifadə etmək bacarığına;

elmi-tədqiqat və elmi axtarışlar işinin aparılmasına;

klassik sənətşünaslıq məsələlərinin tarixi və nəzəri aspektləri üzrə müstəqil təhlil aparmağa;

elektron kitabxanalardan, referativ jurnallardan aktual və İnnovativ elmi-texniki məlumatları əldə etməyə;

öz elmi axtarışlarının nəticələrini təqdim etmək bacarığına;

fənnin ümumi mənzərəsini müstəqil qurmağa;

mədəniyyət müəssisələri və təşkilatlarla iş aparmağa;

regionlarda yerləşən muzey və mədəniyyət mərkəzlərində iş aparmağa;

muzey və rəsm qalereyalarında, dövlət tarixi və diyarşünaslıq muzeylərində iş aparmağa;
bədii qalereyalarda, ictimai və dövlət müəssisələrində iş aparmağa;
muzey sərvətləri və xatirə əşyalarının bərpası üçün elmi bərpa mərkəzlərində iş aparmağa; dövlət quruculuğu, yerli, regional və respublika özünüidarə orqanlarında iş aparmağa; sənətşünaslıq sahəsində bilikləri təqdim etmək və onlan iş şəraitinə adaptasiya etməyə; humanitar bilikləri yığcam və dürüst ifadə etməyə.

### 3. Təhsil Proqramının strukturu

| Fənləri n sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | |
| 1 | **Azərbaycan tarixi**<br>Bu fənn Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafım sistemli şəkildə, xronoloji ardıcıllıqla öyrənir, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu təhlil və tədqiq edilir. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil edilir. | 5 |
| 2 | **Azərbaycan dilində işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə Azərbaycan dilində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı bacarıqlarının aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 4 |
| 3 | **Xarici dildə işgüzar və akademik kommunikasiya**<br>Bu fənn çərçivəsində tələbələrə ixtisası üzrə xarici dillərdən birində təqdimat etmək, natiqlik, akademik və işgüzar yazı, şifahi və yazılı bacarıqların aşılanmasına xüsusi diqqət yetirilməlidir. | 15 |
| | **Seçmə fənlər** (Seçmə fənlər ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. İxtisasın spesifikasından asılı olaraq seçmə fənlərə əlavələr edilə bilər.) | **6** |
| 4 | Fəlsəfə<br>Sosiologiya<br>Hüququn əsasları<br>Məntiq_<br>Etika və estetika<br>Yaradıcılıq psixologiyası | 3 |
| 5 | İnformasiya texnologiyaları (ixtisas üzrə)<br>İnformasiyanın idarə edilməsi<br>Sahibkarlığın əsasları və biznesə giriş | 3 |
| | **İxtisas fənləri** | |
| 1 | **ixtisasa giriş**<br>Bu fənnin tədrisi zamanı təsviri incəsənətin növləri və janrlarına; vasitələri və prinsiplərinə; əsas ifadə vasitələri və texnologiyasına; təsnifat prinsiplərinə; sənətşünaslıqda analizin əsas anlayışları və metodlarına; incəsənət tarixi tədqiqatının tarixi metodlarına diqqət yetirilməlidir. | 5 |

| | | |
|---|---|---|
| 2 | **Muzey işinin əsasları**<br>Bu fənn muzey işinin ümumi nəzəri-metodoloji məsələlərini öyrətməlidir. Növbəti kurslarda muzey işinin bütün strukturlarını əks etdirən ayrı-ayrı fənnlərə keçid almazdan öncə, muzey işinin əsas istiqamətləri haqqında ilkin | 5 |

| | | |
|---|---|---|
| | bilik verməlidir. Muzey işinin əsas anlayışları, nəzəriyyə və metodikası haqqında ilkin biliklər, məhz bu fənn vasitəsilə tədris olunmalıdır. | |
| | **Arxiv işinin əsaslan**<br>Bu fənn çərçivəsində arxivlərin tarixi işinin məzmunu, əsas anlayışları öyrənilməlidir. Arxiv işinin əsas istiqamətləri, iş prinsipləri haqqında ilkin biliklər əhatə olunmalıdır. | 4 |
| 3 | **Bədii üslublar (sahələr üzrə)**<br>Bu fənn çərçivəsində dünya incəsənətində mövcud olan cərəyanlar və üslublara; onların səciyyəvi cəhətlərinə; dünyanın müxtəlif bölgələrində, bəşər tarixinin müxtəlif dövrlərində bədii həyat dinamikasının nümunələri və xüsusiyyətlərini təhlil etməyə; incəsənətin əsas inkişaf mərhələlərini və təkamülünü anlayaraq, ayn-ayn üslub istiqamətlərini fərqləndirmək bacarığına diqqət yetirilməlidir. | 5 |
| 4 | **Məişət və geyim tarixi**<br>Bu fənn çərçivəsində dünya xalqlarının maddi mədəniyyətinin və geyim tarixinin inkişafının əsas mərhələlərinə, formalaşma istiqamətlərinə; bu sahələrdə baş verən prosesləri qiymətləndirərək sərbəst fikir yürütmək bacarığına; hər bir mərhələyə xas olan məişət və geyimin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmaq bacarığına diqqət yetirilməlidir. | 5 |
| 5 | **Mədəniyyət tarixi və nəzəriyyəsi**<br>Bu fənn çərçivəsində tələbələr mədəniyyət nəzəriyyəsinin ümumi problemləri, əsas kateqoriya və anlayışları (mədəniyyətin mahiyyəti, quruluşu və funksiyaları, mədəniyyətin morfologiyası, mədəniyyətin dinamikası, mədəniyyətin tipologiyası, mədəniyyət və təbiət, mədəniyyət və işarələr sistemi, mədəniyyət və dil, mədəniyyət və cəmiyyət, mədəniyyət və şəxsiyyət, mədəniyyət və sivilizasiya və s.) haqqında bilgilər əldə etməlidirlər. Tələbələr müasir dünyada gedən mədəniyyət və qloballaşma prosesləri və mədəni müxtəliflik problemi ilə tanış olmalıdırlar. Fənnin mədəniyyət tarixi bölümündə tələbələrə müxtəlif xalqların mədəniyyətinin ilk arxaik formalarının yaranmasından bu günümüzə qədər keçdiyi tarixi inkişaf yolu, əsas mədəni hadisələr və proseslər barədə baza bilgiləri verilməlidir. | 10 |
| 6 | **Azərbaycan mədəniyyət tarixi**<br>Bu fənn çərçivəsində Azərbaycan xalqının etnos kimi formalaşdığı dövrdən başlayaraq hər dövrün mədəniyyətinin xronoloji inkişaf xüsusiyyətləri tarixi və sosial-iqtisadi inkişaf prizmasından təhlil edilməli, maddi və mənəvi mədəniyyət formalaşmasının qanunauyğunluqları və təzahürləri (dil, din, əlifba, xalq sənəti, incəsənət sahələri, elm, təhsil, mətbuat və s.) barədə sistemli bilgilər verilməlidir. Tələbələr müasir Azərbaycan mədəniyyətinin inkişafı və dünya mədəniyyətində tutduğu yer barədə ətraflı məlumatlar əldə etməlidir. | 9 |
| 7 | **Dünya ədəbiyyatı**<br>Bu fənn çərçivəsində tələbələr Şərq və Qərb ədəbiyyatının yaranma tarixini, xronoloji dövrləşməsini (Qədim Şərq və antik, Orta əsrlər və İntibah dövrü, XVII-XVII1 əsrlər, XIX-XX əsrlər və Yeni dövr Şərq, Qərb, Amerika ədəbiyyatı) və inkişaf mərhələlərini öyrənməlidir. Onlara dünya ədəbiyyatının əsas ədəbi cərəyanları (barokko, klassizm, maarifçilik, romantizm, tənqidi realizm, modemizm, naturalizm, realizmin yeni mərhələsi (sosial-psixoloji xətt), sehrli realizm, ekzistensializm, postmodernizm və müasir dövrdə adı çəkilən cərəyanların “neo” versiyasını) və onların görkəmli nümayəndələrinin yaradıcılığı, dünya Nobel mükafatı laureatları haqqında bilgilər verilməlidir. | 5 |

| | | |
|---|---|---|
| 8 | **Mifologiya**<br>Bu fənn çərçivəsində dünya xalqlarının müəyyən mifoloji düçüncə sistemi, bu sistemdə ifadə olunan dünya modeli öyrənilir. Əsas obyekti miflər olan bu fənn daxilində tələbələrə ibtidai insanların kainatın və insanın yaranması haqqında ilkin təsəvvürləri, mifoloji strukturlar, arxetiplər, mif və din, mifik şüur və tarixi şüur, dünya xalqlarının, xüsusən türk və Azərbaycan xalqlarının mifik baxışlar sistemi, mifologiyanın incəsənət sahələri ilə əlaqəsi, müasir mifoloji konsepsiyalar barədə ətraflı məlumat verilməlidir. | 6 |
| 9 | **Multikulturalizmə giriş**<br>Bu fənn çərçivəsində multikulturalizmin mahiyyəti, onun yaranmasının səbəbləri, əhəmiyyəti haqqında biliklərə; dünya, o cümlədən Azərbaycan ictimai-fəlsəfi fikir tarixində formalaşmış tolerantlıq, multikulturalizm ideyaları və mültikulturalizmin nəzəri-ideoloji əsaslarına; cəmiyyətdəki dini və etnik-milli müxtəlifliyin tənzimlənməsində multikulturalizmin əhəmiyyətinə; etnik-mədəni müxtəlifliyin tənzimlənməsində dünya dövlətlərinin mütərəqqi təcrübəsi ilə tanış olmağa; multikulturalizm ilə sosial-iqtisadi inkişafın, xarici siyasətin qarşılıqlı münasibətinə; multikulturalizmin Azərbaycan modelinin mahiyyətinə, xüsusiyyətlərinə diqqət yetirilməlidir. | 3 |
| 10 | **Mülki müdafiə**<br>Bu fənn çərçivəsində mülki müdafiənin təşkilinin əsaslan və onun vəzifələrinə; mülki müdafiə üzrə sülh və müharibə dövründə baş verən fövqəladə hallarda yaranmış zədələnmə ocaqlannda xilasetmə və digər təxirəsalınmaz işlərin görülməsinə; əhalinin mühafizəsinin öyrədilməsi və təşkilinə; fövqəladə hallarda tələbə və professor-müəllim heyətinin fəaliyyətinə; müasir qırğın vasitələri ilə zədələnmişlərə ilkin tibbi yardım göstərməyə; bakterioloji zədələnmə ocaqlannda epidemiya əleyhinə tədbirlə bağlı vərdişlərin aşılanmasına; mülki müdafiə üzrə fövqəladə hallarda xilasetmə bacarıqlarına diqqət yetirilməlidir. | 3 |
| | **Təcrübə** | 21 |
| | **Yekun attestasiya** | 9 |
| Kreditlərin ümumi cəmi: | | **240** |

| Ümumi fənlər | İxtisas fənləri (o cümlədən Mülki müdafiə) | ATM tərəfindən müəyyən edilən fənlər | Təcrübə | Yekun attestasiya (Dövlət imtahanı) | Cəmi |
|---|---|---|---|---|---|
| **30** | **60** | **120** | **21** | **9** | **240** |

## 4. Tədris və öyrənmə

4.1. Tədris və öyrənmə mühiti elə təşkil olunmalıdır ki, tələbələr təhsil proqramında nəzərdə tutulan təlim nəticələrini əldə edə bilsinlər.

4.2. Tədris və öyrənmə metodları müvafiq sənədlərdə (məsələn, müəllimin sillabusunda və s.) təsvir edilməli və ictimaiyyətə (məsələn, akademiyanın veb səhifəsində, proqramın broşurlannda və s.) açıq olmalıdır.

4.3. Tədris və öyrənmə metodları innovativ təhsil təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Tədris və

öyrənmə metodlarının müntəzəm şəkildə təkmilləşdirilməsi akademiyanın keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

4.4. Təlim prosesində fərqli tədris metodlarından istifadə edilməlidir. Bu metodlar tələbəyönümlü yanaşmanı və tələbələrin təlim prosesindəki fəal rol oynamasını təşviq etməlidir. İstifadə edilə biləcək tədris və öyrənmə metodlarına aşağıdakıları nümunə olaraq göstərmək olar:
mühazirə, seminar və praktiki tapşırıqlar;
təqdimatlar və müzakirələr, debatlar;
müstəqil iş/araşdırma (məsələn, praktiki nümunələrlə iş);
layihələr;
problemlərə əsaslanan tədris;
sahə işləri;
rol oyunları;
hesabatlar;
qrup qiymətləndirməsi;
ekspert metodu;
video və audio konfrans texnologiyaları;
video və audio mühazirələr;
distant təhsil;
simulyasiyalar;
və s.

*Qeyd: sadalanan metodlar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

4.5. Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilməlidir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq, praktiki bacarıqların gücləndirilməsinə yönəlməlidir.

4.6. Təhsil proqramı tələbələrin müstəqilliyini dəstəkləməli və ömürboyu təlim konsepsiyasını inkişaf etdirməlidir. Təhsil prosesinin sonunda tələbə hər hansı istiqamətdə müstəqil işləyə bilməli və təhsilini ömürboyu davam etdirməyi bacarmalıdır.

## 5. Qiymətləndirmə

5.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, tələbələrin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülsün. Bu, əldə olunan irəliləyişi monitorinq etməyə, təhsil proqramlarının nəticələrinə hansı dərəcədə nail olunduğunu qiymətləndirməyə, eləcə də tələbələrlə fikir mübadiləsinə şərait yaratmağa və təhsil proqramlarının təkmilləşdirilməsi üçün ilkin şərtlərin formalaşdırılmasına yardım etməlidir.

5.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (məsələn, fənn proqramında, sillabusda və s.) təsvir edilməli və hamı üçün açıq olmalıdır (məsələn, akademiyanın veb səhifəsində, proqramın broşurlannda və s.).

5.3. Qiymətləndirmə üsullan innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzərdən keçirilməli və təkmilləşdirilməlidir. Qiymətləndirmə üsullarının müntəzəm şəkildə yenilənməsi ali təhsil müəssisəsinin keyfiyyət təminatı sisteminin bir hissəsi olmalıdır.

5.4. Tədris prosesində fərqli qiymətləndirmə üsullarından istifadə edilməlidir. Bu üsullar tələbəyönümlü yanaşmam və tələbələrin təlim prosesindəki fəal rol oynamasım təşviq etməlidir. İstifadə edilə biləcək qiymətləndirmə üsullarına nümunələr:

- yazılı tapşırıqlar;
- bilik və bacarıqlara dair testlər, kompüter əsaslı testlər;
- şifahi təqdimatlar;
- sorğular;
- açıq müzakirələr;
- praktika hesabatları;
- praktikada, laboratoriyada müşahidələrə əsasən bacarıqların qiymətləndirilməsi;
- layihə işlərinə dair hesabatlar;
- portfolionun qiymətləndirilməsi;
- frontal sorğu;
- qrup şəklində və özünü qiymətləndirmə;
- və s.

*Qeyd: sadalanan üsullar fənnin spesifikasından asılı olaraq seçilə və (və ya) dəyişdirilə bilər.*

5.5. Təlim nailiyyətlərinin qiymətləndirilməsində istifadə olunan üsullar aydın müəyyənləşdirilmiş meyarlara əsaslanmalıdır və təhsil müddətində tələbənin əldə etdiyi bilik, bacarıq və qabiliyyət səviyyəsini düzgün və etibarlı şəkildə müəyyən etməyə imkan verməlidir. Təlim nəticələrinin qiymətləndirilməsi zamanı müəllimlər şəffaflıq, qərəzsizlik, qarşılıqlı hörmət və humanistlik prinsiplərini rəhbər tutmalıdırlar.

5.6. Tələbələrə müəllimlərlə/qiymətləndiricilərlə təhsillərinin bütün aspektlərini, o cümlədən qiymətləndirmə prosesini müzakirə etmək imkanı verilməlidir. Ali təhsil müəssisəsi qiymətləndirmə prosesi, yaxud qiymətlə bağlı apelyasiya prosedurlarını müəyyən etməlidir.

5.7. Akademik etika təhsil prosesində önəmli yer tutur. Tələbələrə akademik dürüstlüyə riayət etmək, plagiarizm problemini anlamaq öyrədilir. Onlar intellektual əməyin əqli mülkiyyət hüquqları barəsində məlumatlandırılmalıdırlar.

## 6. Proqramın və hər bir fənnin təlim nəticələri

6.1. Təhsil proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil

müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

6.2. Təlim nəticələri Əlavə 1 -də verilmişdirş. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təlim nəticələri arasındakı əlaqə əks olunub.

6.3. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabuslan müntəzəm şəkildə yenilənməlidir.

## 7. İnfrastruktur və kadr potensialı

7.1. Təhsil Proqramının tədris, öyrənmə və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir: tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, praktiki və laboratoriya dərslərinin keçirilməsi üçün müvafiq kabinetlər, laboratoriyalar, kompüter sinifləri və s. özündə birləşdirən, həmçinin elmi- tədqiqat işlərinin yerinə yetirilməsi üçün müasir avadanlıqla təchiz olunmuş maddi-texniki bazası olmalıdır. Təhsilalanlann ali təhsil müəssisəsinin lokal şəbəkəsinə, internetə, informasiya bazalarına, elektron kitabxanalarına, axtarış sistemlərinə çıxışı təmin edilməlidir.

7.2. Ali təhsil müəssisələrinin professor-müəllim heyəti, bir qayda olaraq, elmi dərəcələrə malik olur. Digər dövlət, yaxud özəl müəssisələrdən və/və ya digər müvafiq təşkilatlardan gələn şəxslər də tədrisə cəlb oluna bilərlər.

## 8. Təcrübə

8.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

8.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında, muzeylərdə, dövlət tarixi-memarlıq qoruqlarında (tarixi-bədii qoruqlarda), respublikanın müxtəlif bölgələrində (eləcə də akademiya, özəl, yerli, yaxud beynəlxalq təşkilat və şirkətlər və s.) təşkil oluna bilər.

8.3. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq şirkət/müəssisə arasında müqavilə imzalanmalıdır. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər şirkət/müəssisə, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir. Müqavilədə şərtlər, tələbələrin hüquq və öhdəlikləri, digər zəruri təfərrüatlar əks olunur.

8.4. Təcrübənin qiymətləndirilməsi: tələbə təcrübə müddətində istehsalat müəssisəsi və ya şirkətdə aparılan təcrübə layihəsinin nəticələrinə dair hesabatı yazmalı və ali məktəbin akademik heyəti və təcrübə yerinin nümayəndələrindən ibarət komissiya qarşısında müdafiə etməlidir. Təcrübə proqramının yerinə yetirilməsi üzrə nəticələr təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilmiş formada qiymətləndirilir.

## 9. Yekun attestasiyası

9.1. Təhsil Proqramı Dövlət İmtahanı ilə tamamlanır.

9.2. Dövlət İmtahanının qiymətləndirilməsi: Qiymətləndirmə digər müəssisələrdən dəvət olunan yüksək ixtisaslı mütəxəssislərin və buraxılış kafedrasının aparıcı professor-müəllim heyətinin iştirakı ilə təşkil olunmuş müvafiq komissiya tərəfindən aparılır.

## 10. Məşğulluq və ömürboyu təhsil

10.1. Bu proqramın məzunları ixtisas dərəcələrinə uyğun olaraq dövlət müəssisələrində, muzeylərdə, dövlət tarixi-memarlıq qoruqlarında (tarixi-bədii qoruqlarda), arxeoloji mərkəzlərdə, sərgi salonları və qalereyalarda, bərpa mərkəzində, özəl təşkilatlarda, şirkətlərdə işləyə bilərlər.

10.2. AH təhsil müəssisəsi Təhsil Proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb səhifəsində yerləşdirməlidir.

10.3. Bakalavr proqramının məzunları təhsillərini “Sənətşünaslıq” ixtisası üzrə magistr proqramında davam etdirə bilərlər.

10.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömürboyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
Aparat rəhbərinin müavini, Elm, ali və orta ixtisas
təhsil şöbəsinin müdiri Mədəniyyət və incəsənət

_Yaqub Piriyev
“26” 08 2020-ci il

ixtisasları qrupu üzrə Dövlət Təhsil Proqramlarını
hazırlayan işçi qrupun sədri

Ceyran Mahmudova

2020-ci i!

**əlavə 1**

## Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri

| Təhsil Proqramının təlim nəticələri (PTN) PTN |
|---|
| **1.** Fundamental sənətşünaslıq sahəsində dərin biliklərə əsaslanan müasir sənətşünaslığm elmi-nəzəri nailiyyətlərindən istifadə edərək muzeylərdə, kitabxanalarda, arxivlərdə işləmək qabiliyyəti, tarixi-müqayisəli təhlil, müasir kompleks yanaşma, tipoloji yanaşma, sosioloji- fəlsəfi, kulturoloji araşdırma üsullarından istifadə etməyi bacarmalıdır.<br>Azərbaycanın müasir dövlətçilik ənənələrinin yaranması, formalaşması və inkişafını bilməlidir, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında siyasi, ideoloji, iqtisadi, mədəni amillərin rolu təhlil və tədqiq etməyi bacarır. Müasir dünyada Azərbaycan dövlətinin yeri və rolu sistemli təhlil etməyi bacarır.<br>Azərbaycan dilində təqdimat etməyi, natiqlik, akademik və işgüzar yazı nümunələrini bacarır. Xarici dillərdən birində təqdimat etməyi, natiqlik, akademik və işgüzar yazı nümunələrini bacarır.<br>Multikulturalizmin mahiyyəti, onun yaranmasının səbəbləri, cəmiyyətdəki dini və etnik-milli müxtəlifliyin tənzimlənməsi, multikulturalizm ilə sosial-iqtisadi inkişafın, xarici siyasətin qarşılıqlı münasibətinə dair fikir yürütməyi bacarır.<br>Mülki müdafiənin təşkilinin əsaslan və onun vəzifələrini, mülki müdafiə üzrə sülh və müharibə dövründə baş verən fövqəladə hallarda yaranmış zədələnmə ocaqlannda xilasetmə və digər təxirəsalınmaz işlərin görülməsini, əhalinin mühafizəsinin təşkilini, müasir qırğın vasitələri ilə zədələnmişlərə ilkin tibbi yardım göstərməyi, mülki müdafiə üzrə fövqəladə hallarda xilasetmə işlərini bacanr. |
| **PTN** 2. Müəyyən bir dövrdə, rəssam və ya sənət istiqaməti üzrə ixtisaslaşmış sənətşünaslar rəsm, heykəltəraşlıq və dekorativ-tətbiqi sənətləri qiymətləndirmək üçün mütəxəssis kimi çıxış etməyi bacanr. |
| **PTN 3.** Bədii tərzini, əsərin yaranmasının tarixi kontekstini və s. nəzərə alaraq əsərin dəyərini qiymətləndirməyi (mümkün yaşı, dövrü, müəllifliyini müəyyənləşdirmək) bacanr. |
| **PTN 4.** Klassik sənətşünaslıq məsələlərinin tarixi və nəzəri aspektləri üzrə müstəqil təhlil apararaq bədii tənqidin üsullarından istifadə etməyi bacarır. |
| **PTN 5.** Elmi-tədqiqat və elmi axtanşlar işinin apanlması zamanı elektron kitabxanalardan, referativ jurnallardan aktual elmi-texniki məlumatlan əldə etməyi, öz elmi axtanşlannın nəticələrini təqdim etməyi bacarır. |
| **PTN 6.** Sənətşünaslıq sahəsində bilikləri təqdim etməyi, beynəlxalq arenada işləməyi, yeni ideyalar irəli sürməyi bacanr. |

### Fənn üzrə təlim nəticələri (FTN)

### "İxtisasa giriş" fənni üzrə təlim nəticələri (FTN)

**FTN 1.** Sənətşünaslıq elminin inkişafındakı əsas mərhələlər haqqında biliklərin məcmusu kimi sənətşünaslıq haqqında təsəvvür yaratmağı öyrənir.

**FTN 2.** Sənətşünaslıq tarixini öyrənir.

**FTN 3.** Təsviri incəsənətin növləri və janrlarını, vasitələri və prinsiplərini, əsas ifadə vasitələri və texnologiyasını, təsnifat prinsiplərini öyrənir.

**FTN 4.** Sənətşünashğm əsas metodoloji prinsipləri, onların yaranma tarixi və təqdimat xarakterini öyrənir.

**FTN 5.** Dünya təsviri və dekorativ-tətbiqi incəsənətinin, eləcə də memarlıq tarixinin təkamülünü, formalaşma və inkişaf prosesini öyrənir.

**FTN 6.** Sənətşünaslıq analizinin əsas anlayışlarını və metodlarını, tədrisi və sistemli təhlilini aparmağı öyrənir.

**"Muzey və arxiv işi" fənni üzrə təlim nəticələri (FTN)**

| |
|---|
| **FTN 1.** Muzey işinin metodologiyası və metodikasının əsas müddəaları, muzey haqqında ümumi məlumatları, hadisələr, onların növləri və xüsusiyyətlərini öyrənir. |
| **FTN 2.** Muzey işinin əsaslarını, muzeylərin müasir avadanlıq və eksponatlarla təchizi məsələlərini öyrənir. |
| **FTN 3.** Muzey işlərinin nəzəriyyəsi və metodologiyası sahəsində nəzəri bilikləri öyrənir. |
| **FTN 4.** Milli mənəvi sərvətləri qoruyub-saxlayan müəssisə kimi dəyərləndirilən muzeylərin fond, arxiv, |

mədəni kütləvi işlərinin təşkilini öyrənir.
**FTN 5.** Muzey işinin nəzəriyyəsi və metodikasını Öyrənir.
**FTN 6.** Muzey tədbirlərinin təşkili və keçirilməsi üsullarını öyrənir.

**“Bədii üslublar” (sahələr üzrə) fənni üzrə təlim nəticələri (FTN)**

**FTN 1.** Dünya incəsənətində mövcud olan cərəyanlar və üslublar, onların səciyyəvi cəhətlərini öyrənir.
**FTN** 2. Memarlıq üslublarım, onların əsas nümunələrini öyrənir.
**FTN 3.** Dünya incəsənətinin əsas cərəyanlarının nümayəndələrinin yaradıcılığını öyrənir.
**FTN 4.** Dünyanın müxtəlif bölgələrində bəşər tarixinin müxtəlif dövrlərində bədii həyat dinamikasının nümunələri və xüsusiyyətləri təhlil etməyi öyrənir.
**FTN 5.** İncəsənətin əsas inkişaf mərhələlərini və təkamülünü anlayaraq incəsənətin ayn-ayrı üslub istiqamətlərini fərqləndirməyi öyrənir.
**FTN 6.** Təsviri sənət ustalarının və memarların ümumi tarixi üslub, bədii istiqamət, məktəb kontekstində formalaşan səciyyəvi xüsusiyyətlərini öyrənir.

**“Məişət və geyim tarixi” fənni üzrə təlim nəticələri (FTN)**

**FTN 1.** Dünya xalqlarının maddi mədəniyyətinin və geyim tarixinin inkişafının əsas mərhələləri, formalaşma istiqamətlərini öyrənir.
**FTN 2,** Bu sahələrdə baş verən prosesləri qiymətləndirərək sərbəst fikir yürütməyi öyrənir.
**FTN 3.** Hər bir mərhələyə xas olan məişətin və geyimin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağı öyrənir.
**FTN 4.** Məişət və kostyum tarixi haqqında nəzəri biliklərin geniş bir sahəsini öyrənir.
**FTN 5.** Tarixi aspektdə məişətin və kostyumun forması, dizaynı, funksiyalarım öyrənir.
**FTN 6.** Estetik zövqə uyğun olaraq inkişaf etmiş bir şəxsiyyəti formalaşdırmağı öyrənir.

**“Mədəniyyət tarixi və nəzəriyyəsi” fənni üzrə təlim nəticələri (FTN)**

**FTN 1.** Mədəniyyət anlayışı və onun mahiyyətini, funksiyalarını, mədəniyyət anlayışına tarixi və müasir yanaşmaları, mədəniyyətlər tarixi, mədəniyyət tarixinin əsası, müasir mədəniyyət konsepsiyaları, mədəniyyətin morfologiyası, mədəniyyətin domenləri, xüsusiyyətləri və növləri, mədəniyyət və sivilizasiya nəzəriyyələri haqqında məlumatı öyrənir.
**FTN 2.** İnsanların maddi və mənəvi həyatının mühüm hadisələri olmaq etibarilə mədəniyyətin ümumbəşəri və milli aspektləri və qanunauyğunluqları haqqında bilikləri öyrənir. Etno- mədəniyyət anlayışı prizmasından ictimai proseslərin təhlilini öyrənir.
**FTN** 3. Mədəniyyətin tarixi və nəzəri problemlərini, təşəkkül tapmasının iqtisadi və siyasi amillərini, mədəniyyət tarixinin inkişafında əsas qanunauyğunluqları öyrənir.
**FTN 4.** Mədəniyyət anlayışım insan-təbiət və cəmiyyət münasibətləri kontekstində və sərvət kimi öyrənir. Mədəniyyəti işarələr sistemi kimi öyrənir. Verbal və qeyri-verbal mədəni təcrübələri öyrənir.
**FTN 5.** Mədəniyyətin qorunması və müdafiəsini, mədəniyyətin müasir problemlərini, ona yeni yanaşma metodlarını öyrənir.
**FTN 6.** Mədəniyyət sistemində mentalitet və onun yeri, etnologiya, sosiologiya və s. sistemlərdən fərqi, qlobal problemlər, onun mənşəyi, mahiyyəti və həll olunma yollan haqqında bilikləri öyrənir. Dünya xalqlarının mədəniyyətini, özünəməxsus xüsusiyyətlərini və inkişafındakı tarixi prosesləri öyrənir.

**“Azərbaycan milli mədəniyyət tarixi” fənni üzrə təlim nəticələri (FTN)**

**FTN 1.** Dünyanın ən qədim mədəniyyət ocaqlarından biri olan Azərbaycan mədəniyyəti, dünya mədəniyyəti sistemində onun özünəməxsus yeri və Azərbaycan mədəniyyətinin keçmiş olduğu zəngin təcrübəni öyrənir.
**FTN 2.** Azərbaycan mədəniyyətinin inkişaf problemlərini, xronoloji ardıcıllıqla xarakterik xüsusiyyətlərini, Azərbaycan xalqının incəsənət, elm, təhsil, əxlaq və məişətinin tarixi inkişafı haqqında zəruri məlumatları öyrənir.
**FTN 3.** Qədim dövr Azərbaycan mədəniyyəti, orta əsrlər Azərbaycanda mədəni inkişaf problemləri, İslam mədəni dəyərləri, XVII-XVIH əsrlər Azərbaycan mədəniyyəti, XIX-XX əsr Azərbaycan mədəniyyəti haqqında bilikləri öyrənir.
**FTN 4.** Müstəqil Azərbaycan mədəniyyəti haqqında məlumatlar əldə edərək, müstəqilliyin, demokratik quruculuğun Azərbaycan mədəniyyətinə təsirini, milli təhsil konsepsiyasının həyata keçməsi, milli

ideologiyanın formalaşması ilə bağlı məlumatları öyrənir.

**FTN 5.** Azərbaycan mədəniyyətinin inkişaf problemləri və Azərbaycanın Mədəniyyət siyasəti ilə bağlı zəruri bilikləri öyrənir.

**FTN 6.** Müasir dövrdə Azərbaycan mədəniyyətinin inkişafında baş verən prosesləri, dünya mədəniyyətinin təcrübəsi və nailiyyətlərindən faydalanaraq, Azərbaycan milli mədəniyyətini daha da ihkişaf etdirməyin yollarını öyrənir.

**"Dünya ədəbiyyatı" fənni üzrə təlim nəticələri (FTN)**

**FTN 1.** Dünya ədəbiyyatının sistemli, nəzəri və tarixi-fıloloji biliklərinin formalaşdırılmasını, dünya mədəniyyəti ilə ədəbiyyatın qarşılıqlı əlaqəsini öyrənir.

**FTN 2.** Qədim Şərq ədəbiyyatı və antik ədəbiyyatın predmeti və dövrləşməsini öyrənir.

**FTN 3.** Orta əsrlər və intibah dövrü Şərq ədəbiyyatının, Avropa ədəbiyyatının yaranma və inkişaf mərhələlərini, intibah dövrü Avropa və Şərq ədəbiyyatının nümunələrini (İtaliya, İspaniya, Fransa, Almaniya, İngiltərə və Niderland, Yaponiya, Türk, Azərbaycan) öyrənir.

**FTN 4.** XVII-XVIII əsrlər Qərb və Şərq ədəbiyyatının predmeti və əsas məziyyətlərini, dünya ədəbiyyatının yeni dövrünün yaranması və onun səciyyəvi xüsusiyyətlərini, yeni ədəbi cərəyanlar və ədəbi metodların yaranmasını öyrənir.

**FTN 5.** XIX-XX əsrlər Qərbi Avropa və Amerika ədəbiyyatının əsas inkişaf istiqamətləri, əsas ədəbi cərəyanlar və ədəbi istiqamətləri (alman, ingilis, italyan, macar, rumın, slavyan və s. romantizmini, realizmini, modemizmini və s.) öyrənir.

**FTN 6.** XX əsrin sonu və XXI əsrin əwələrinin Qərbi Avropa, Amerika, Şərq ədəbiyyatının inkişaf xüsusiyyətləri, əsas nümayəndələri haqqında məlumatı öyrənir.

**"Mifologiya" fənni üzrə təlim nəticələri (FTN)**

**FTN 1.** Dünya xalqlarının mifologiyasının yaranma və inkişaf qanunauyğunluqları, ibtidai insanların ilkin təsəvvürləri və mifoloji düşüncə tərzi haqqında bilikləri öyrənir.

**FTN 2.** Dünya hadisələrinin mifoloji izahı, bəşər övladının özünü tanıması, mifik təfəkkürün formalaşması, dünyanın xaotik mənzərəsi haqqındakı kortəbii təsəvvürlərdən başlayaraq onun harmonik qaydalarına dair bəsit inanclara keçid dövrü haqqında materialları öyrənir.

**FTN 3.** Dünyanın müxtəlif xalqlarının dünya, varlıq, yaradılış, həyat, zaman, məkan haqqında dünyagörüşlərini, düşüncə tərzini, soykökünü dərk etməyə imkan verən bilikləri öyrənir.

**FTN 4.** Kainatın və insanın yaranması haqqında ilkin təsəvvürlər, mifik baxışlar sistemi, mifologiyanın digər elm və incəsənət sahələri ilə əlaqəsi, dünya xalqlarının miflərinin ideya- məzmun xüsusiyyətləri haqqında məlumatları öyrənir.

**FTN 5.** İkiçayarası xalqların - Şumer-Akkad mifologiyasından başlayaraq Şərq və Qərb xalqlarının mifoloji dünyagörüşünü əks etdirən bilikləri öyrənir.

**FTN 6.** Mifologiyanın ibtidai görüşlərlə - animizm, totemizm, antropomorfizm, folklor, etnoqrafiya, etnopsixologiya ilə əlaqəsi haqqında, bəşər tarixinin inkişafı ilə əlaqədar olaraq mifologiyanın buddizm, xristianlıq, islam və yəhudi dinləri ilə əlaqəsi haqqında bilikləri öyrənir.

**"Multikulturalizmə giriş" fənni üzrə təlim nəticələri (FTN)**

**FTN 1.** Cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin, o cümlədən bu müxtəlifliklərin əsasını təşkil edən etnik, dini və mədəni dəyərlərin qorunması yollarını öyrənir.

**FTN 2.** Multikulturalizmin mahiyyətini, nəzəri-ideoloji əsaslarını, meydana gəlməsi səbəblərini və tarixi şərtlərini və həmçinin multikulturalizm siyasət modelinin digər mümkün siyasət modellərindən üstünlüklərini öyrənir.

**FTN 3.** Dinin mahiyyəti və onun təzahür formaları, dinin meydana gəlməsi ilə bağlı müxtəlif konsepsiyalarla tanış olmalıdırlar. Müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələri, müasir dövrdə Azərbaycanda dövlət-din münasibətlərini öyrənir.

**FTN 4.** Etnik birliklər və onların təkamülünü, etnik kimlik və milli müəyyənlik problemlərini, etnik dəyərlər və milli mentaliteti, milli şüurun və milli ideyanın formalaşmasında etnik dəyərlərin rolu haqqında məlumatı öyrənir.

**FTN 5.** Multikulturalizm daxili və xarici siyasətin tərkib hissəsi kimi, davamlı və inklüziv inkişafın əldə olunmasında multikulturalizm siyasətinin rolu haqqında bilikləri öyrənir.

**FTN 6.** Müasir dövrdə Qərb ölkələrində multikulturalizmin vəziyyəti, Azərbaycanda multikulturalizm

siyasət modelinin formalaşmasını şərtləndirən obyektiv və subyektiv səbəbləri, Azərbaycan multikulturalizminin əsas xüssusiyətləri haqqında məlumatları Öyrənir.

**“Mülki müdafiə*’ fənni üzrə təlim nəticələn ı** [redacted]

**FTN 1.** Fövqəladə hadisələrin təsnifatı, onların tam xarakterisitkası, mülki müdafiənin yaranma tarixi, onun FH-da rolu və vəzifələrini öyrənmək. Mülki müdafiə ilə bağlı Nazirlər Kabinetinin qərar və qanunlarım öyrənir.

**FTN 2.** Müasir, sülh və müharibə dövrlərində mülki müdafiənin rolunu və vəzifələrini,
texnogen FH-də hadisələrin qarşısının alınması yollarını, bakterioloji, kimyəvi və radiasiya şəraitində əhalinin davranış qaydalarını, mahiyyətini, karantin, observasiya şəraitində, sanitar təmizliyi, ərazinin dezinfeksiyası, kimyəvi zəhərlənmə ocaqlarında deqazasiya, radiasiya şəraitində isə dezaktivasiya üsullarını Öyrənir.

**FTN 3.** Fövqəladə hallar komissiyası. Fövqəladə halların nəticələrinin aradan qaldırılması üçün dövlət sisteminin rolu və vəzifələrini, hərbiləşdirilməmiş mülki madafiə dəstələrinin yaradılmasım öyrənir.

**FTN 4.** Fövqəladə hallar zamanı əhalinin mühafizəsinin təşkilini həyata keçirməyi, kollektiv mühafizə qurğuları və onlardan istifadə qaydalarım, fərdi müfhafizə vasitələri və onlardan istifadə qaydalarını, fövqəladə hallar zamanı əhalinin köçürülməsini həyata keçirməyi öyrənir. **FTN 5.** Mülki müdafiə kəşfiyyatının təşkili və aparılması qaydalarım,, radiasiya və kimyəvi kəşfiyyat cihazlarım işlətməyi, mülki müdafiə üzrə idarəetmə, mülki müdafiə qərargahları və onların əsas vəzifələrini öyrənir.

**FTN 6.** Mülki müdafiə tədbirlərinin planlaşdırılması və həyata keçirilməsini, FH-nin nəticələrinin aradan qaldırılması yollarım, qəza-xilasetmə və digər təxirəsalınmaz işləri dağıntı ocaqlarında təşkil etmək və aparılmasını həyata keçirməyi, əhalinin mülki müdafiə sahəsində hazırlanmasının prinsiplərini, fövqəladə hadisələr zamanı dağıntı ərazisində ilk tibbi yardım aparmağı öyrənir.

## Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

| | | Proc | | ramın tə | im nəticələri | | |
|---|---|---|---|---|---|---|---|
| Blokun adı | Fənlərin adi | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 |
| Ümumi fənlər | Azərbaycan tarixi | X | | | | | |
| | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | X | | | | | |
| | Xarici dildə işgüzar və akademik kommunikasiya | X | X | X | | | |
| | Seçmə fənlər | | | | | | |
| İxtisas fənləri | İxtisasa giriş | X | | | | | |
| | Muzey və arxiv işinin əsasları | | | | | X | |
| | Arxiv işinin əsaslan | | | | | | X |
| | Bədii Üslublar (sahələr üzrə) | | | | X | X | |
| | Məişət və geyim tarixi | | | X | | | |
| | Mədəniyyət tarixi və nəzəriyyəsi | | X | X | | | |
| | Azərbaycan mədəniyyət tarixi | | | | X | X | |
| | Dünya ədəbiyyatı | | X | | | | |
| | Mifologiya | X | | | | | |
| | Multİkulturalizmə giriş | X | | | | | |
| | Mülki müdafiə | X | | | | | |